# ***Ölümsüzlüyə qovuşan ömür***

*Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir.*

***Ümummilli Lider***
**Heydər ƏLİYEV**

Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi, akademik Ziya Musa oğlu Bünyadovun həyat və yaradıcılığı parlaq bir ömrün güzgüsü olaraq zəngin yaradıcılıq və qəhrəmanlıq yolunu əks etdirir.

O öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq orta əsrlər Şərqi və ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınmış, geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazanmışdır.

Ziya Bünyadov Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuşdur. 16 yaşında ikən Göyçay şəhərində orta məktəbi bitirmiş və Bakı Hərbi Piyadalar Məktəbinə daxil olmuşdur.

Hərbi məktəbi bitirdikdən sonra (1941) leytenant Z.Bünyadov Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş, Ukrayna, Moldova, Qafqaz, Belarus, Polşa və Berlin uğrunda döyüşlərdə fəal iştirak etmişdir. İki dəfə yaralanmış və kontuziya almışdır. Hərbi tapşırığı yerinə yetirərkən göstərdiyi şücaətə, qəhrəmanlıq və igidliyə görə 27 fevral 1945-ci ildə Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Sonra bir il Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi olan gənc zabit Z.Bünyadov şəhərin təsərrüfat və mədəni həyatının bərpa edilməsində fəal iştirak etmişdir. Keçmiş ADR hökuməti Ziya Bünyadovun xidmətini yüksək qiymətləndirərək onu "Vaffenbrudersaft", "Artur Bekker" qızıl medalları və fəxri çekist adı ilə təltif etmişdir.

1946-cı ildə sovet ordusu sıralarından tərxis olunduqdan sonra Z.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə həmin institutun aspiranturasına daxil olmuşdur. Tələbəlik illərində görkəmli sovet ərəbşünası professor Y.A.Belyayev onun müəllimi olmuşdur. Böyük şərqşünasla yaxınlıq Ziya Bünyadovun sonrakı fəaliyyətində, onun ərəbşünas və mediyevist kimi formalaşmasında həlledici rol oynamışdır. 1954-cü ildə Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada Z.Bünyadov ilk tədqiqat işi olan "Afrikada İtaliya imperializmi" adlı namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

1954-cü ildə alim Bakıya qayıtmış və Azərbaycan EA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsinə qəbul edilmişdir.

Z.Bünyadov 1958-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi olmuşdur. 1964-1981-ci illərdə isə Yaxın və Orta Şərq Xalqları İnstitutunun (Şərqşünaslıq İnstitutu o vaxt belə adlanırdı - G.B.) Şərqin orta əsrlər tarixi şöbəsinə rəhbərlik etmiş, 1981-1986-cı illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Ziya Bünyadovun elmi yaradıcılığı iki istiqamətdə inkişaf etmişdir: Yaxın və Orta Şərq ölkələrinin feodalizm dövrü tarixinin tədqiqi və Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair orta əsr müəlliflərinin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri.

1964-cü ildə Z.Bünyadov tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda dissertasiya müdafiə etmişdir. 1965-ci ildə Ali Attestasiya Komissiyası ona professor adı vermişdir.

1965-ci ildə çap olunmuş "Azərbaycan VII-IX əsrlərdə" kitabı Z.Bünyadova Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti qazandırmışdır. Bu, Azərbaycan tarixinin ərəb xilafəti dövrünə dair sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Burada geniş şəkildə tədqiqata cəlb olunmuş ərəb, fars, türk, gürcü mənbələrinin, o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində islam fəthi ərəfəsində və xilafət dövründə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı hərtərəfli təhlil olunmuş, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər araşdırılaraq öz həllini tapmışdır. Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilmiş, Babəkin başçılıq etdiyi xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılmışdır.

1967-ci ildə görkəmli alim Azərbaycan EA-nın müxbir üzvü seçilmiş, 1970-ci ildə "Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, ictimai elmlər seriyası (tarix, fəlsəfə və hüquq seriyası)" jurnalının baş redaktoru təyin olunmuşdur.

1978-ci ildə Ziya Bünyadov "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyasını nəşr etdirmişdir. Alimin çoxillik əməyinin məhsulu olan bu sanballı tədqiqat işində səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı araşdırılmışdır. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı, XII əsrin ikinci yarısı - XIII əsrin birinci rübündə Orta Şərqin feodal sülalələrinə mənsub hökmdarların qurduğu dövlətlərin, o cümlədən Azərbaycan Eldəniz Atabəyləri dövlətinin dövrün siyasi və mədəni həyatında mühüm rol oynadığı göstərilmişdir. Əsərdə, həmçinin o dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qiymətli və ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar yerləşdirilmişdir. Ziya Bünyadov öz monoqrafiyasında Azərbaycanın və qonşu ölkələrin orta əsrlər tarixinə dair bir sıra problemlərin gələcək həlli, kifayət qədər öyrənilməmiş məsələlərin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən əsaslı elmi nəticələr əldə etmiş, bununla da feodalizm dövrü tarixinin başlıca problemlərinin, Şərqdə feodalizmin inkişafının ümumi qanunauyğunluqları və fərdi xüsusiyyətləri kimi mühüm nəzəri məsələlərin həllinə böyük töhfə vermişdir.

Görkəmli alimin "Azərbaycan Atabəylər dövləti" əsəri ölkəmizin və qonşu dövlətlərin tarixinin çox az öyrənilən dövrünün araşdırılmasında mühüm əhəmiyyət kəsb etdiyinə görə elmi ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilmişdir. Əsər 1980-ci ildə elm və texnika sahəsində Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

1982-ci ildə Z.Bünyadov Azərbaycan SSR əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Elə həmin il türk xalqları tarixinin öyrənilməsində böyük xidmətlərinə görə Türk Tarix Qurumunun müxbir üzvü seçilmişdir.

1986-cı ilin yanvarından 1988-ci ilin mayınadək alim Azərbaycan SSR Şərqşünaslıq İnstitutunun Şərqin orta əsrlər tarixi şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1986-cı ildə Moskvada "Nauka" nəşriyyatı tərəfindən alimin "Xarəzmşahlar-Anuştəginlər dövləti. 1097-1231-ci illər" adlı monoqrafiyası nəşr edilmişdir.

1988-ci ilin mayında Z.Bünyadov Aral dənizinin xilasetmə komitəsinin tərkibinə daxil edilmişdir. Həmin il Urgənc (Xarəzm) şəhərinin 340 illiyinin qeyd edilməsi ilə əlaqədar şəhərin tarixinin və ədəbiyyatının öyrənilməsi sahəsində xidmətlərinə və Aral dənizinin ekoloji probleminin həll edilməsinə böyük kömək göstərdiyinə görə Ziya Bünyadova yeni təsis olunmuş "Urgənc şəhərinin fəxri vətəndaşı" adı verilmişdir.

Ziya Bünyadov 1988-ci ilin mayından 1990-cı ilədək yenidən Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun direktoru olmuşdur. 1988-ci ilin oktyabrında türk xalqları tarixinin öyrənilməsində xidmətlərinə görə Türk Tarix Qurumunun fəxri üzvü, 1990-cı ilin iyununda isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. 1992-ci ilin oktyabrından ömrünün sonuna qədər yenidən Şərqşünaslıq İnstitutuna rəhbərlik etmişdir.

Müxtəlif illərdə akademik çeşidli Şərq mənbələrinin şərhli tərcümələrini nəşr etdirmişdir: Mxitar Qoş. Alban salnaməsi. B., 1960; Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1971 (rus dilində). 1992-ci ildə Azərbaycan dilində nəşr edilib; Şihabəddin Məhəmməd ən-Nəsəvi. Sirat əs-sultan Cəlal əd-Din Mankburni. Ərəb dilindən şərhli tərcümə. Bakı, "Elm", 1973. Kitab 1996-cı ildə "Lukoyl" neft şirkətinin sponsorluğu ilə yenidən nəşr edilib; Sədrəddin Əli əl-Hüseyni. Əxbar əd-daulə əs-səlcuqiyyə. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1980; Əbu Məhəmməd Əhməd ibn Əsam əl-Kufi. Kitab əl-futuh. VII-XI əsrlər Azərbaycan tarixinə aid iqtibaslar. Ərəb dilindən şərhli tərcümə. Bakı, "Elm", 1981; Əbülqasim əz-Zəhravi. Cərrahiyyə və alətlər haqqında traktat. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1982; Yaqut əl-Həməvi. Mücəm əl-buldan. Azərbaycan haqqında məlumatlar. Ərəb dilindən şərhli tərcümə. Həmdullah Qəzvini. Azərbaycan haqqında məlumatlar. İngilis dilindən tərcümə. Bakı, "Elm", 1983; Abbasqulu ağa Bakıxanov. "Gülüstani-İrəm". Müqəddimə, şərhlər və qeydlər. Bakı, "Elm", 1991.

Ziya müəllimin elmi axtarışları təkcə orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi Vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəlində Azərbaycanda

baş verən hadisələr, ADR-in fəaliyyəti, Bakı kommunası və sair mövzulara bir sıra məqalələr həsr edib. Ötən əsrin 30-cu illərinin repressiyaları isə alimin "Qırmızı terror" adlı kitabında (Bakı, 1993) işıqlandırılıb. Kitab çoxsaylı arxiv sənədləri əsasında yazılıb.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Ziya müəllimin elmi fəaliyyətinin bir istiqaməti də xalq tərəfindən islam dininin doğru-dürüst öyrənilməsinə yönəlmişdir. Alim professor V.Məmmədəliyevlə birgə müqəddəs "Qurani-Kərim"i dilimizə çevirib, ona şərhlər yazıb. Sonra "Dinlər, təriqətlər, məzhəblər" adlı irihəcmli soraq kitabı hazırlayıb. "İndi xalq öz dininə qayıdır, lakin dininə, imanına qayıtması üçün nə dərsliklər, nə elmi ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır" - yazan müəllif yaranmış boşluğu bu kitabla aradan götürməyə çalışırdı. Kitab alimin vəfatından sonra, 1997-ci ildə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində işıq üzü görmüşdür.

Alim 1990-cı ildə "Qurani-Kərim"in tərcüməsinə görə H.Z.Tağıyev adına mükafata, 1993-cü ildə A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin şərhli nəşrinə görə A.A.Bakıxanov adına mükafata layiq görülmüşdür.

Bir çox beynəlxalq elmi məclislərin iştirakçısı olan akademik Z.Bünyadov Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir. Türk Tarix Qurumunun VI-XII konqreslərində, Bağdadda tarixçilərin beynəlxalq konqresində, Tokioda şərqşünasların XXXI beynəlxalq konqresində, İranda Təbərinin 1100 illiyinə, Füzulinin 500 illiyinə həsr olunmuş beynəlxalq konfranslarda, Misirdə məşhur tarixçi əs-Süyutinin yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirak edərək sanballı məruzələrlə çıxış etmişdi.

İnstitut direktoru kimi Ziya Bünyadov böyük elmi-təşkilati iş aparırdı. O, Azərbaycan şərqşünaslıq elminin tərəqqisi, institutumuzun keçmiş İttifaqın digər şərqşünaslıq institutları və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi.

Akademik Ziya Bünyadov Şərqşünaslıq İnstitutunun rəhbəri kimi Yaxın və Orta Şərq ölkələri probleminə aid bir sıra beynəlxalq və regional elmi konfransların təşkilatçısı olmuşdur. "Şərqşünasların II Ümumittifaq konfransı" (1983), "İslamın aktual problemləri" (1985, 1987, 1992), "Fars körfəzi problemi" (1988), Zaqafqaziyanın gənc şərqşünaslarının I konfransı (1989), "Atatürkün anadan olmasının 100 illiyinə həsr edilən beynəlxalq konfrans" və s. O, ömrünün sonunadək "Vətən tarixi", "Ümumi tarix" və "Din tarixi və nəzəriyyəsi" ixtisasları üzrə birləşmiş müdafiə şurasına sədrlik etmişdir.

1992-ci ildə, Azərbaycanın ən çətin dövründə Ziya Bünyadov özünün siyasi seçimini edib. Onu Yeni Azərbaycan Partiyasına sədr müavini seçiblər.

12 noyabr 1995-ci ildə Z.Bünyadov Milli Məclisin deputatı seçilib.

Akademik Z.Bünyadovun Vətən qarşısında xidmətləri dövlət rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. O, SSRİ-nin bir sıra orden və medalları ilə təltif edilmişdir. 1983-cü ildə ona elmin inkişaf etdirilməsində əldə etdiyi nailiyyətlərə görə SSRİ XTNS-in gümüş medalı, 1985-ci ildə isə faşist

Almaniyası üzərində qələbənin 40 illiyi münasibətilə I dərəcəli Vətən Müharibəsi ordeni verilmişdir.

21 fevral 1997-ci ildə Sovet İttifaqı Qəhrəmanı, Milli Məclisin deputatı, akademik Ziya Musa oğlu Bünyadovun həyatına faciəli şəkildə son qoyuldu. O, öz evinin astanasında vəhşicəsinə qətlə yetirildi.

Həmin nəhs gündən bizi on dörd ildən artıq zaman kəsiyi ayırır. Bu vaxt ərzində Ziya müəllimin elmi irsi, həyatı və işıqlı şəxsiyyəti barədə bir çox fikirlər söylənib, məqalələr yazılıb. Onların hamısının fövqündə, əlbəttə ki, akademik Ziya Bünyadovla vida mərasimində ulu öndər Heydər Əliyevin söylədiyi nitq durur: "Ermənistanın millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan münasibətlərinə aid cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə səsini qaldıran və onlara əsaslı, dəlilli və tarixi mənbələrə istinadla cavab verən, onların qarşısını alan alim Ziya Bünyadov idi.

O vaxtlar Sovet İttifaqı mətbuatında, Ermənistan mətbuatında, onların kitablarında, elmi yazılarında, Azərbaycan və Moskva mətbuatındakı məqalələrdə gedən mübahisələr çoxlarının yadındadır. Hər tərəfdən dəstə ilə alimlər, yaxud da alim adı daşıyan cürbəcür adamlar Azərbaycan tarixinə o vaxtlar təcavüz edirdilərsə, bu tərəfdən Ziya Bünyadov, yenə də deyirəm, öz iradəsi, biliyi ilə, elmi əsərləri ilə onlara layiqli cavab verir, Azərbaycan tarixinin doğru-düzgün olduğunu dünyaya sübut edir və onu qoruyurdu.

Buna görə də erməni millətçiləri, erməni separatçıları və ümumiyyətlə, Azərbaycana mənfi münasibət göstərən cürbəcür xarici qüvvələr Ziya Bünyadovu özlərinə düşmən kimi qəbul edirdilər.

Xatirimdədir, 60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü surətdə qəbul olunması haqqında elmi mübahisələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdu.

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək, öz elmi fikirlərini söyləyirdi. 67-68-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq şəkildə bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olubdur, amma bu, könüllü olmayıbdır. Odur ki, tarixi həqiqəti demək lazımdır.

O vaxtkı siyasi mühit, siyasi konyuktura bunu qəbul etmirdi. Ziya Bünyadov hətta buna görə günahlandırılırdı, onu cəzalandırmaq istəyirdilər. Sonralar, əvvəlki bütün tarix araşdırıldıqdan sonra hamı bu fikrə gəldi ki, o vaxtlar Ziya Bünyadov doğru deyirdi. Həqiqət bunda idi. Həqiqəti Ziya Bünyadov deyirdi, öz yazılarında göstərirdi".

1998-ci ildə Ziya Bünyadov vəfatından sonra Azərbaycanın ən yüksək mükafatı - "İstiqlal" ordeninə layiq görülmüşdür.

Görkəmli alimin zəngin biliyi, geniş dünyagörüşü, hədsiz zəhmətsevərliyi və böyük tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərdə özünü göstərib.

Alimin saysız-hesabsız məqalələrindən hər biri, onun istər orta əsr yaşayış məntəqələrinin müəyyən edilməsinə və geneoloji cədvəllərin dəqiqləşdirilməsinə, istərsə də Azərbaycanın xilafət dövrü mərhələsinin və qonşu ölkələrlə əlaqələrinin öyrənilməsinə və ya bütün orta əsrlər müsəlman dünyasının siyasi, sosial-iqtisadi və mədəni tarixinə həsr olunmuş hər bir tədqiqat əsəri, tibb, astronomiya, seysmologiya və digər sahələrə aid orta əsr qaynaqlarından əxz edilmiş məlumatların şərhinə, yeni məxəzlərin üzə çıxarılması və əldə olunmuş məlumatların elmi dövriyyəyə daxil edilməsinə yönəldilmiş tədqiqat işi gərgin axtarışların, tükənməz səbir və əməyin nəticəsidir. Bütün bunlar akademikin dərin düşüncə tərzinin, dəqiq və mükəmməl təhlili metodunun, incə və sərraf tədqiqatçı məharətinin göstəriciləridir.

Z.Bünyadov ixtisaslı şərqşünas kadrların hazırlanmasında da böyük xidmət göstərmişdir. O, Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olmuşdur. O, İraq və Suriya Ərəb Respublikaları üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynamışdır. 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olmuşdur.

Azərbaycan xalqının böyük oğlu, ölkəmizin cəfakeş vətəndaşı Ziya Bünyadovun əziz xatirəsi qədirbilən xalqımızın, gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Onun insanlara bilik, ziya bəxş edən ölməz əsərlərindəki ruhu qəlbləri təlatümə gətirəcək, hər kəsi vətəndaşlıq borcuna - Vətəni sevməyə, ona vicdanla və sədaqətlə xidmət etməyə çağıracaq.

**Gövhər BAXŞƏLİYEVA,**
**AMEA-nın akademik Z.Bünyadov adına**
**Şərqşünaslıq İnstitutunun direktoru,**
**filologiya elmləri doktoru, professor,**
**Milli Məclisin deputatı**

***Azərbaycan.- 2011.- 25 dekabr.- S. 10.***

## ***Şərqşünaslıq və tarix elmlərinə töhfələr vermiş böyük alim***

Görkəmli tarixçi və şərqşünas alim, tanınmış ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Ziya Bünyadov Azərbaycanın elmi-ictimai həyatında mühüm rol oynayıb. Dünya şöhrətli alim zəngin və çoxşaxəli yaradıcılığı sayəsində respublikamızda tarix elminin yeni mərhələyə yüksəldilməsi işinə layiqli töhfələr verib. Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair uzun illər ərzində ərsəyə gətirdiyi fundamental tədqiqatlar, eləcə də orta əsrlərə aid mənbələrin tərcüməsi ilə yanaşı, onlara yazdığı geniş şərhlər alimə böyük şöhrət qazandırıb.

2023-cü ilin dekabr ayında Ziya Musa oğlu Bünyadovun anadan olmasının 100 ili tamam olur. Azərbaycan Prezidenti İlham Əliyev "Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizdə tarix elminin inkişafına dəyərli töhfələr vermiş akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası onun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək. Sənəddə qeyd olunduğu kimi, Akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçmiş, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf etmişdir. Geniş erudisiyalı alim mənbəşünaslıq və orta əsrlər dövrü üzrə professional hazırlığa malik mütəxəssislərdən ibarət elmi məktəb formalaşdırmışdır.

Qeyd edək ki, Ziya Bünyadov 1923-cü il dekabr ayının 21-də Astara şəhərində, hərbi tərcüməçi ailəsində anadan olmuşdur. Onun atası Bibi-Heybət alim-şeyxləri nəslindən olmuş Musa Mövsüm oğlu Bünyadov idi. O, atasının sayəsində hələ uşaqlıqdan ərəb dilini öyrənmiş və Quranı oxumağa başlamışdı. Nəsil şəcərəsinin əsaslandığı tarixi sənədlərə görə, Bünyadov soyadı onun 13-cü ulu babası şeyx Bünyadın adından götürülüb.

Azərbaycanda yeni ərəbşünas tarixçilər nəslinin formalaşmasında onun fəaliyyəti təqdirəlayiqdir. Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti. 1136-1225-ci illər" əsəri elmi ictimaiyyətin böyük qiymətini almaqla yanaşı, həm də 1980-ci ildə Azərbaycanın Dövlət mükafatına layiq görülüb. 1965-ci ildə çap olunmuş "Azərbaycan VII-IX əsrlərdə" kitabı ona Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti qazandırıb. O, akademik Vasim Məmmədəliyevlə birgə müqəddəs "Qurani-Kərim"i Azərbaycan dilinə tərcümə edib. Böyük məsuliyyət və zəhmət tələb edən bu işə görə o, Hacı Zeynalabdin Tağıyev adına mükafata layiq görülmüşdür.

Ziya Bünyadovun araşdırmalarından biri də orta əsrlərin mütəfəkkir şairi İmadəddin Nəsiminin ölümü ilə bağlıdır. Akademik Nəsimin edam olunmağı və dərisinin diri-diri soyulmağı barədə məlumatları təkzib edib. O, müasir Azərbaycan

şərqşünasları Nəsiminin edamına aid faktları yalnız türk alimi Abdülbaqi Gölpınarlının "İslam ensiklopediyasında"kı "Nəsimi" adlı məqaləsindən götürüb və bununla da kifayətlənirməkdə ittiham edib.

Ziya Bünyadovun fundamental araşdırmalarında orta əsr müsəlman Şərqi dövlətlərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı dərin təhlillər əsasında dolğun əksini tapmışdır. İlk dəfə onun elmi ictimaiyyətə çatdırdığı və dilimizə mükəmməl surətdə çevirərək əhatəli müqəddimə və şərhlərlə nəşr etdirdiyi bir çox nadir mənbələr bu gün də davamlı istinad olunan ən mötəbər qaynaqlar sırasındadır. Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparmış, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilmişdir.

Akademik Ziya Bünyadov 1988-ci ilin mayından 1990-cıilədək Şərqşünaslıq İnstitutunun direktoru olub. 1988-ci ilin oktyabrında türk xalqları tarixinin öyrənilməsində xidmətlərinə görə Türk Tarix Qurumunun fəxri üzvü, 1990-cı ilin iyununda isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilib. 1992-ci ilin oktyabrından ömrünün sonuna qədər yenidən Şərqşünaslıq İnstitutuna rəhbərlik edib.

Ziya Bünyadov öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayıb. Görkəmli alim şərqşünas kadrların hazırlanmasında da böyük xidmətlər göstərib. O, Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olub, İraq və Suriya üçün yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb. Akademik 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olub.

1992-ci ildə Ziya Bünyadov Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyət uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 nəfər tanınmış ziyalıdan biri idi. 1992-ci ildə Bünyadov Yeni Azərbaycan Partiyası sədrinin müavini seçilmişdir. 1995-ci ildə Milli Məclisin deputatı, eyni zamanda beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü seçilib.1997-ci il fevral ayının 21-də yaşadığı binanın qarşısında cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilib. Bakıda yerləşən Fəxri Xiyabanda dəfn edilib.

1998-ci ildə Z.Bünyadov vəfatından sonra Azərbaycanın "İstiqlal" ordeninə layiq görülüb. Bakının böyük prospektlərindən birinə alimin adı verilib, AMEA-nın Şərqşünaslıq İnstitutu mərhum akademikin adını daşıyır.

***Nəzakət Ələddinqızı***

***<u>Səs.- 2023.- 29 sentyabr.- S. 11.</u>***